# İŞĞAL DÖVRÜNDƏ TÖRƏDİLMİŞ EKOLOJİ CİNAYƏTLƏR VƏ TƏBİİ MÜHİTİN YENİDƏN BƏRPASI YOLLARI

**Səttar-zadə R.İ., Mütəllimov F.N.**

*Ekologiya və Təbii Sərvətlər Nazirliyi*
*faig.mutallimov@eco.gov.az*

Ermənistan tərəfindən işğal dövründə təbiətə qarşı qeyri-humanist münasibət regionun ətraf mühitinə mühüm təhlükə yaratmışdır.

Ermənistanın bəşəriyyətə və insanlığa qarşı yönələn işğalçılıq siyasəti nəticəsində Azərbaycanın qiymətli meşə sahələrinin, flora və faunanın, o cümlədən təbiət abidələrinin məhv edilməsi, su resurslarının çirkləndirilməsi və təbii sərvətlərin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuşdur. Ekoloji tarazlığın pozulması nəinki insan, eləcə də bütün canlıların həyatı üçün təhlükə yaratmışdır.

Ermənistan beynəlxalq hüququn və ekoloji konvensiyaların müddəalarını kobud şəkildə pozmaqla 30 ilə yaxın bir müddət ərzində praktiki olaraq nəzarətsiz qalmış ərazilərdə ekoloji terror həyata keçirmişdir.



**Zəngilan rayonunda məhv edilmiş meşə sahələri**

Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində aparılmış ilkin monitorinqlərə əsasən 30 illik işğal dövründə 60 min hektara yaxın sıx meşə örtüyünün, təbiət abidəsi statuslu 130-dan çox qədim ağacın, meşə fonduna aid olmayan ərazilərdə 1 milyonadək ağac və kol bitkisinin məhv edildiyi, 30-dan çox hidrometeoroloji stansiya və məntəqənin tamamilə dağıdıldığı, eləcə də 50-dən çox mineral-xammal yatağının istismar edildiyi məlum olmuşdur.

İşğaldan azad edilmiş ərazilərdən axan çaylarda ekoloji vəziyyətin öyrənilməsi və onların çirklənmə səviyyəsinin müəyyən edilməsi məqsədilə yerli və beynəlxalq laboratoriyalar tərəfindən monitorinqlərin nəticələrinə əsasən Ermənistan ərazisindən daxil olan transsərhəd çaylar, xüsusilə





Oxçuçay ciddi şəkildə çirklənməyə məruz qalmışdır.

İşğal dövründə törədilmiş ekoloji cinayətlərin miqyasının geniş olması ərazilərdə ekosistemin bərpası üçün təxirəsalınmaz tədbirlərin görülməsini şərtləndirir. Bu məqsədlə ərazilərin təbii iqlim şəraitinə uyğun yeni yaşıllıq sahələrinin salınması, region üçün ənənəvi hesab olunan fauna növlərinin reintruduksiyası, meşə bərpa tədbirləri, eləcə də yeraltı və yerüstü su ehtiyatlarının qiymətləndirilməsi və onlardan təyinatı üzrə istifadəsinin təmin edilməsi, eləcə də dağıdılmış su anbarlarının bərpası və yeni su anbarlarının yaradılması məsələlərinin araşdırılması vacibdir.

Bununla yanaşı regionda ətraf mühitin sağlamlaşdırılması və ekoloji tarazlığın təmin edilməsi üçün işğala qədər mövcud olmuş dövlət təbiət qoruqlarının və yasaqlıqların sərhədlərinin müəyyənləşdirilməsi, oradakı təbiət obyektlərinin inventarlaşdırılması və lazımi mühafizə tədbirlərinin təşkil edilməsi zərurəti yaradır ki, bu istiqamətdə mina və partlamamış hərbi sursatların təmizlənməsi dinamikasına uyğun olaraq müvafiq işlərə başlanılmışdır.

Həmçinin xüsusi mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi və onların bazasında milli parkların və ya təbiət parklarının yaradılması məsələsinin araşdırılması və bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilərək tətbiqi işğaldan azad olunmuş ərazilərdə ekosistemin bərpasına, ekoturizmin inkişafına və sağlam ətraf mühitin yaradılmasına böyük təkan verəcəkdir.